# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə ixrac təşviqinin ödənilməsi Qaydası”nın, “İxrac təşviqi şamil olunacaq qeyri-neft məhsullarının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə Siyahısı”nın və “Məhsulların növündən asılı olaraq ixrac təşviqinin baza məbləğinə tətbiq olunacaq Əmsallar”ın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 6 oktyabr tarixli 401 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 6 oktyabr tarixli 401 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1719; 2018, № 6, maddə 1373) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - “Qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə ixrac təşviqinin ödənilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.2.6-cı yarımbənd aşağıdakı redaksiyada verilsin:

“2.2.6. üzərində Azərbaycan Respublikasının gömrük orqanının ixrac olunan malın gömrük ərazisindən çıxarılması ilə bağlı qeydi olan növündən asılı olaraq nəqliyyat sənədinin surəti.”.

2. 2.3-cü bənddə “2 (iki)” rəqəm və sözü “3 (üç)” rəqəm və sözü ilə əvəz edilsin.

3. 2.4-3-cü bəndə “Maliyyə Nazirliyinə” sözlərindən sonra “(o cümlədən, həmin nüsxənin skan edilmiş surəti Azərbaycan Respublikası Maliyyə Nazirliyinin elektron poçt ünvanına göndərilməklə)” sözləri əlavə edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 29 fevral 2020-ci il

№ 74